

# YENİLƏŞƏN, GÖZƏLLƏŞƏN CƏNUB ŞƏHƏRİ

Masallı şəhəri ölkənin cənub bölgəsinin mərkəzində yerləşir. Bakı-Astara magistral avtomobil və dəmir yolları, qonşu rayonlara uzanan yollar bu cənnətməkan diyardan keçir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurla icrası nəticəsində Masallı şəhərinin siması xeyli dəyişib. Yaşıllığa bürünmüş parklar, asfalt döşənmiş səliqəli küçələr, müasir layihə əsasında tikilmiş yaraşıqlı inzibati və yaşayış binaları, çoxlu sosialyönümlü obyektlər şəhərə xüsusi gözəllik verir.

Şəhərin daha da abadlaşdırılması istiqamətində tikinti, quruculuq işləri davam etdirilir. Son illər yeni infrastruktur layihələrin icrası nəticəsində əhaliyə göstərilən xidmətlərin səviyyəsi yüksəlmiş, yeni iş yerləri yaradılmışdır. **Masallı Rayon İcra Hakimiyyəti başçısının Masallı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Əbülfəz Nuriyev** şəhərin abadlaşdırılması sahəsində görülmüş işlər, həyata keçiriləcək yeni layihələr barədə söhbət açdı:

–Masallı şəhərinin sosial-iqtisadi inkişafı rayon rəhbərliyinin daim diqqət mərkəzindədir. Nümayəndəlik işini yerli icra hakimiyyəti haqqında Əsasnaməyə uyğun qurur. Şəhərin ərazisi 2554 hektar, əhalisi 26741 nəfərdir. Son illər nəzərdə tutulmuş bütün infrastruktur layihələr uğurla icra edilmişdir. Elektrik enerjisi, təbii qaz, içməli su təchizatında heç bir problem yoxdur. Əhalinin məişət, sosial qayğıları həll olunur. Vətəndaşların müraciətlərinə həssaslıqla baxılır. Sakinləri narahat edən məsələlərin, irəli sürdükləri təkliflərin həllinə lazımi köməklik göstərilir.

Nümayəndəlik bələdiyyə, dövlət və özəl qurumlarla əlaqəli şəkildə işləyir. Sakinlərin rahat həyat şəraitini təmin etmək, vətəndaş məmnunluğuna nail olmaq üçün operativ qaydada tədbirlər görülür.

Rayon Mənzil İstismar Sahəsi çoxmənzilli yaşayış binalarında sakinlərə göstərilən kommunal xidmətlərin səviyyəsini xeyli yaxşılaşdırıb. Heydər Əliyev prospektində 19 binanın, Qarabağ küçəsində 16 və C.Cabbarlı küçəsində 8 binanın ətrafında, həyətlərində abadlıq-quruculuq işləri görülüb. Qarabağ küçəsindəki 9 saylı binanın qarşısındakı meydança əsaslı şəkildə yenidən qurulub, bu binanın və 11 saylı binanın ətrafına bordürlər düzülüb, ağac və gül kolları əkilib. Sakinlər tərəfindən qanunsuz tikilmiş qaraj və digər tikililər sökülüb, həmin ərazilərdə təmizlik işləri aparılıb.

Şəhərdə yeni yaşıllıqların salınması, suvarılması və becərilməsi diqqət mərkəzində saxlanılır. Heydər Əliyev və Bakı prospektlərində, Azərbaycan, akademik Zərifə Əliyeva, Qurtuluş, Qarabağ, Elşad Hüseynov, Səfəralı Məmmədov küçələrində, Seybətin dairəsində, park-bulvar ərazisində və Hüseynhacılı yolunda xan çinar, sərv, həmişəyaşıl ağaclar, qızılgül və digər növ gül kolları əkilib. Rayon Yaşıllaşdırma Müəssisəsi ağaclara, yaşıllıqlara xidmət göstərir. Suvarma işlərini həyata keçirmək üçün Heydər Əliyev prospektində, Azərbaycan və akademik Zərifə Əliyeva küçələrində, Seybətin və Musaküçə dairələrində, park-bulvar ərazisində suvarma xətləri, 10 ədəd su mühərriki qurulub. Mövsümlə əlaqədar ağac və gül kollarında budanma işləri aparılıb, yaşıllıqlara aqrotexniki qulluq göstərilir.

Masallı Su Kanal Sahəsi əhaliyə keyfiyyətli və fasiləsiz qaydada içməli suyun verilməsini təmin edir. Şəhərin ərazisində su borularında və kanalizasiya xətlərində baş verən qəzalar operativ qaydada aradan qaldırılır.

Şəhər Bələdiyyəsi ilə birlikdə Heydər Əliyev və Bakı prospektlərində ticarət obyektlərinin yerləşdiyi ərazilərə mütəmadi reydlər keçirilir, ərazilərin təmiz, səliqəli saxlanılması, yaşıllıqların qorunması, qanunsuz tikintilərin dayandırılması ilə bağlı müvafiq tədbirlər görülür.

Qanunsuz küçə ticarətinin və tikintilərin qarşısının alınması, bələdiyyə mülkiyyətində olan zəbt edilmiş kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin təyinatı üzrə istifadəsinin təmin olunması istiqamətində Masallı Rayon İcra Hakimiyyəti, polis şöbəsi və şəhər bələdiyyəsi ilə birgə tədbirlər həyata keçirilir. Təkcə ötən il 17 bu cür fakt aşkarlanaraq vaxtında qarşısı alınıb. Heydər Əliyev prospektində və 20 Yanvar küçəsində qanunsuz küçə ticarəti aradan qaldırılıb. Həmin ərazilərdə mütəmadi reydlər keçirilir, sahibkarlarla söhbətlər aparılır, küçə ticarəti nəzarətdə saxlanılır.

Masallı şəhərinin ərazisində 7 tam orta və bir məktəb-lisey, 6 uşaq bağçası fəaliyyət göstərir. Uşaq bağçalarının 4-ü nümayəndəlik tərəfindən təchiz edilir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə yararsız vəziyyətdə olan 40 yerlik 1 saylı uşaq bağçası üçün yeni, yaraşıqlı 100 yerlik bina tikilərək istifadəyə verilib.

Sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli şərait nəticəsində şəhər ərazisində sahibkarlıq subyektlərinin, sənaye və istehsal müəssisələrinin sayı artıb. Ölkə hüdudlarından kənarda da keyfiyyəti məhsulları ilə tanınan "EMBAWOOD" mebel fabriki, Sənaye Məhəlləsi, çəltik emalı zavodu, "Fəxrəddin-K" kərpic zavodu, "Masera" MMC istilikxanası, hotellər, restoranlar, müxtəlif ticarət və istehsal müəssisələri şəhərin ərazisində fəaliyyət göstərir. Masallı "ASAN xidmət" mərkəzi gənclərin işlə təmin olunmasında və rayonun iqtisadiyyatında mühüm rol oynayır. Ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələr həyata keçirən "ABAD" mərkəzlərindən biri də Masallı şəhərində fəaliyyət göstərir.

Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyənləşdirdiyi zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə əməl edilməsinə nəzarətin gücləndirilməsi məqsədilə müvafiq dövlət qurumları ilə birgə mütəmadi monitorinqlər, reydlər keçirilir. Tibbi-profilaktik tədbirlər çərçivəsində şəhər ərazisində küçə və prospektlərdə, parklarda, ticarət obyektlərinin ətraflarında, yaşayış binalarının girişlərində dezinfeksiya işləri və digər təxirəsalınmaz tədbirlər görülür. Vaksinləşmə uğurla davam etdirilir. Şəhərin sanitar-gigiyenik vəziyyəti ciddi nəzarətdə saxlanılır.

Qarşıda 30 küçənin asfalt örtüyünün dövlət vəsaiti hesabına təmiri, 12 küçədə abadlıq, quruculuq işlərinin görülməsi, parklarda uşaqlar üçün əyləncə qurğularının quraşdırılması nəzərdə tutulub. Artıq bəzi küçələrdə hamarlanma və asfalt işlərinə başlanılıb.



Çoxmənzilli yaşayış binalarının həyətlərində abad məhəllələrin salınması, binaların girişlərində pilləkənlərə üzlüklərin döşənməsi, digər təmir işlərinin görülməsi, blokların işıqlandırılması, zirzəmilərə dəmir qapıların qoyulması nəzərdə tutulub.




Yaxın vaxtlarda enerjidən az sərfiyyatla istifadə etməklə şəhərin Azərbaycan, M.Ə.Sabir, Natəvan, E.Əhədov küçələrində, Seybətin dairəsində yeni işıq sistemi quraşdırılacaq.

Bu günlərdə nümayəndəlikdə Nazirlər Kabinetinin təsdiq etdiyi "Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması Qaydası"nın icrası istiqamətində müzakirələr aparılıb. Şəhərdə sərnişindaşınma xidmətində gerilik olduğu, nəqliyyat sahəsində problemlərin həllinin vacibliyi diqqətə çatdırılıb. "Şəhər mobillik planının hazırlanması" layihəsinin əhalinin təhlükəsiz hərəkətinin təmini və nəqliyyat xidmətinin keyfiyyətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Masallı şəhərinin küçə-yol şəbəkəsində bütün iştirakçıların səmərəli, təhlükəsiz və rahat hərəkətinin təmini ilə əlaqədar konkret vəzifələr müəyyənləşdirilib. İctimai nəqliyyat xidmətinin nümunəvi təşkil edilməsi, təzə avtobus dayanacaqlarının tikilməsi, piyadalar üçün yolların, keçidlərin salınması, marşrutlara rahat, texniki cəhətdən saz, səliqəli avtobusların buraxılması, velosiped nəqliyyatının inkişaf etdirilməsi barədə təkliflər səslənib.





Masallı şəhəri günbəgün inkişaf edir, dəyişir, gözəlləşir. Yeni layihələrin tətbiqi, quruculuq işlərinin davamlı şəkildə aparılması Masallı rayonunun mərkəzini tezliklə daha abad, yaraşıqlı, müasir bir şəhərə çevirəcəkdir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika .- 2022.- 22 aprel.- S.6.